# ODLAR YURDU UNİVERSİTETİ
# STRATEJİ İNKİŞAF PLANININ (2017-2022)
# 2017-2018-Cİ TƏDRİS İLİ ÜZRƏ MONİTORİNQ

# HESABATI

**Bakı – 2018**

# MÜNDƏRİCAT


**1. GİRİŞ** .......... 3

**2. METODOLOGİYA** .......... 3

**3. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ** .......... 3

**4. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR** .......... 13

**5. GÖZLƏNİLƏN NƏTİCƏLƏR** .......... 13

**6. NƏTİCƏ VƏ TƏKLİFLƏR** .......... 14

## 1. GİRİŞ

Bu monitorinq hesabatı Odlar Yurdu Universitetinin 2017-2022-ci illəri əhatə edən Strateji İnkişaf Planının (SİP) ilk ili olan 2017-2018-ci tədris ili üzrə həyata keçirilmiş fəaliyyətlərin qiymətləndirilməsinə həsr olunmuşdur. SİP-in icrasının ilk ili olması səbəbilə, bu hesabatda müqayisəli təhlil aparmaq mümkün deyil. Buna görə də əsas diqqət, ilkin göstəricilərin müəyyən edilməsi və plan çərçivəsində görülən işlərin icra vəziyyətinin dəyərləndirilməsinə yönəldilmişdir.

## 2. METODOLOGİYA

Monitorinq prosesi aşağıdakı prinsiplərə əsaslanmışdır:

- ❖ Strateji İnkişaf Planında nəzərdə tutulan məqsəd və hədəflərə uyğunluğun qiymətləndirilməsi,
- ❖ 2017-2018-ci tədris ili ərzində həyata keçirilən fəaliyyətlərin icra səviyyəsinin təhlili,
- ❖ Mövcud mənbələr əsasında ilkin baza göstəricilərinin müəyyənləşdirilməsi.

Bu prosesdə universitetin daxili hesabatları, struktur bölmələrin təqdim etdiyi məlumatlar və rəsmi sənədlər əsas götürülmüşdür.

## 3. STRATEJİ MƏQSƏDLƏR VƏ HƏDƏFLƏR ÜZRƏ İCRA VƏZİYYƏTİ

### Strateji məqsəd 1. Daxili keyfiyyət təminatını təkmilləşdirmək

***Hədəf 1.*** *Keyfiyyətli təhsilə yönələn sistemin inkişaf etdirilməsi;*

Sözügedən hədəf üzrə aşağıdakı fəaliyyətlər icra edilmişdir.

1. Universitetdə elektron sorğunun keçirilməsini təmin etmek məqsədilə Keyfiyyətin Təminatı Mərkəzinin yaradılması ve fəaliyyəti ilə əlaqədar olaraq Universitetin akademik heyəti, inzibati heyəti ve tələbələr arasında mövcud qaydalara uyğun olaraq elektron sorğunun keçirilməsinin təmin edilməsi; **(Əmr N25/Ü, 29 mart 2018)**

2. Universitetdə kadrlarla bağlı məlumatların toplanılaraq vahid elektron baza yaradılmasının təşkil edilməsi; **(Əmr N28/Ü, 31 mart 2018)**
3. Odlar Yurdu Universitetində əməkdaşlarının reytinq qiymətləndirilməsini işinin təmin edilməsi; **(Elmi Şuranın 14 mart 2018-ci il tarixli qərarı (Protokol No. 06))**

***Hədəf 2.****Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi*

Mövcud tələbə sayı nəzərə alınmaqla internetə çıxışı olan kompüterlərin sayı 100 ədəd olaraq müəyyən edilmişdir. Uzunmüddətli perspektivdə tələbə kontingentin sayının artması ehtimalı çərçivəsində kompüterlərin sayının artmasına ehtiyac yarana bilər ki, bu da müasir çağırışların başlıca prioritet istiqamətləri ilə uyğunluq təşkil edir.

Eyni zamanda kompüterlə təchiz edilmiş laboratoriyaların sayı 3 olaraq müəyyən edilmişdir. Tədris keyfiyyətinin və mənimsəmə imkanlarının yüksəldilməsi kontekstində sözügedən sayın da artırılmasına da zərurət vardır. Belə ki, ixtisasların spesifik xüsusiyyətlərinə müvafiq olaraq mənimsəmənin artırılması üçün bu fəaliyyətin müntəzəm olaraq təkmilləşdirilməsinə ehtiyac vardır.

***Hədəf 3.****OYU-da daha yüksək elmi dərəcəsi, biliyi, səriştəsi ilə fərqlənən alimlərin, pedaqoqların sayının baza ilinə nisbətdə 10 faiz artırılması;*

2017-2018-ci tədris ili üzrə elmi dərəcəsi olan tədqiqatçıların sayı 35 nəfər olaraq ümumi akademik heyyətin sayı isə 81 nəfər olaraq müəyyən edilmişdir.

Digər tərəfdən 2017-2018-ci tədris ili üzrə Odlar Yurdu Universitetində elmlər doktoru və professor dərəcəsinə malik olan müəllimlərin sayı 7 olaraq müəyyən edilmişdir. Sözügedən hədəfə nail olunması üçün universitetdə elmi dərəcəsi olan tədqiqatçıların fəaliyyətini stimullaşdıracaq mexanizmlərin formalaşdırılmasına ehtiyac yarana bilər.

***Hədəf 4.*** *"universitet-məzun", "universitet–valideyn", "universitet-ictimaiyyət" sistemlərini qurmaq, universitetin saytının daha dolğun və çevik olmasını təmin etmək;*

Sözügedən hədəf üzrə Məzunlarla iş mərkəzinin mövcudluğu universitet-məzun əlaqələrinin qurulması üçün zəruri olsa da, bununla bağlı daha geniş struktur bölmənin yaradılmasına ehtiyac vardır.

**Strateji məqsəd 2. Tədris prosesində interaktiv, yeni və daha müasir metodlardan istifadə etmək**

***Hədəf 1.*** *Yeni təhsil standartlarına cavab verən auditoriyaların təşkil edilməsi;*

Odlar Yurdu Universitetində 2017-2018-ci tədris ili üzrə proyektor ilə təchiz edilmiş auditoriyaların sayı 5 olaraq müəyyən edilmişdir. Eyni zamanda interaktiv lövhə ilə təchiz edilmiş auditoriyaların sayı 2 olaraq müəyyən edilmişdir. Dünya təsərrüfat sisteminin modernizasiyasını nəzərə alaraq sözügedən auditoriyaların sayının artırılmasına ehtiyac vardır.

***Hədəf 2.*** *Müəllim və tələbə heyyətinin müasir kompüter proqram-paketlərindən istifadə bacarıqlarının artırılması;*

Əmək bazarının tələblərinə cavab verən rəqabətqabilliyyətli kadrların yetişdirilməsi üçün sözügedən hədəfin reallaşdırılması zəruridir. Sözügedən tədris ili üzrə bu bacarıqların artırılmasına istiqamətlənən fəaliyyət müşahidə edilməmişdir.

***Hədəf 3.*** *İnnovativ və interaktiv təlim metodlarından istifadənin genişləndirilməsi;*

Müasir təlim metodlarından istifadə edilməsi mənimsəmə göstəricisinin yüksəldilməsi üçün önəmlidir. Burada ümumi metodlardan istifadə edilə yanaşı spesifik metodlardan da istifadə üçün müvafiq mexanizmlərin formalaşdırılması önəmlidir. Sözügedən hədəf üzrə qismən fəaliyyət müşahidə edilsə də prosesin intensivləşməsinə ehtiyac var.

***Hədəf* 4.** *Tədris prosesinin İKT-dən istifadə ilə qurulması, tədris materiallarının elektron daşıyıcılarda işlənməsi və tətbiqi;*

Odlar Yurdu Universitetinin 2017-2022-ci illərini əhatə edən SİP-in II strateji məqsədinin I hədəfində tədris prosesində İKT-dən istifadə üçün infrastruktun 2017-2018-ci tədris ili üçün cari vəziyyəti göstərilmişdir. Proqram, sillabus, mühazirə materialları kimi tədris materiallarının elektron daşıyıcılarda işlənməsi prosesinə başlanılmışdır. Lakin prosesin uzunmüddətli perspektivdə tətbiqinin efffektiv olması üçün Odlar Yurdu Universitetinin 2017-2022-ci illərini əhatə edən SİP-in II strateji məqsədinin I hədəfinin dayanıqlı inkişaf etdirilməsinə ehtiyac vardır.

***Hədəf* 5.** *Təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması;*

Müasir dövrdə ali təhsil müəssisələrinin qarşısında duran əsas çağırışlardan biri beynəlxalq rəqabətə davamlı olmaq, məzunlarını qlobal əmək bazarına uyğun hazırlamaq və akademik nüfuzunu artırmaqdır. Bu məqsədə çatmaq üçün təhsil proqramlarının beynəlxalq akkreditasiya qurumlarının tələblərinə uyğunlaşdırılması vacibdir. Sözügedən hədəfin reallaşdırılması Odlar Yurdu Universitetinin reytinqinin artması ilə də səciyyələnə bilər. Sözügedən hədəf üzrə qismən fəaliyyət müşahidə edilsə də prosesin intensivləşməsinə ehtiyac var.

***Hədəf* 6.** *OYU-nun elektron kitabxanasının yaradılması;*

Təhsilin və tədrisin modernizasiyası üçün kitabxananın elektronlaşdırılması zəruridir. Bu istiqamətdə fəaliyyətə başlanılmışdır.

***Hədəf* 7.** *Təhsil Nazirliyindən qrif almış fənn proqramlarının sayının artırılması;*

Təhsil Nazirliyi tərəfindən fənn proqramlarına qrifin verilməsi həmin fənn

proqramının standartlarının ölkənin təhsil standartları ilə uyğunlunu xarakterizə edir. Sözügedən istiqamətdə Odlar Yurdu Universitetinin kafedralarının fəaliyyətinin gücləndirilməsinə ehtiyac vardır. Bu istiqamətdə fəaliyyətə başlanılmışdır.

***Hədəf 8.*** *Tələbə qəbulunun sayını baza ilinə nisbətdə 2 dəfəyə yaxın genişləndirmək;*

Odlar Yurdu Universitetində 2017-2018-ci tədris ili üzrə bakalavr səviyyəsinə qəbul olan tələbə sayı 311 nəfər, magistratura səviyyəsində isə 108 nəfər tələbə olması müəyyən edilmişdir. Sözügedən hədəfin reallaşdırılması üçün tələbə mərkəzli universitetə çevrilmənin mexanizmləri müəyyən edilməlidir. Eyni zamanda burada ictimaiyyətlə əlaqələr sektorunun genişləndirilməsinə ehtiyac vardır. Hal-hazırda sözügedən istiqamət üzrə müqayisəli təhlil aparmaq mümkün deyildir.

***Hədəf 9.*** *Tədrisi təklif olunan ixtisasların sayının baza ilinə nisbətdə artırılması*

Odlar Yurdu Universitetində tədrisi təklif olunan ixtisaslarının sayının baza ilinə nisbətdə artırılması əmək bazarının tələblərinə müvafiq olaraq dəyişməlidir. 2017-2018-ci tədris ili üçün universitetdə bakalavr səviyyəsi üzrə tədrisi təklif olunan ixtisasların sayı 17 olaraq müəyyən edilmişdir. Sözügedən ixtisaslar aşağıdakılardır.

1. Xarici dil müəllimliyi (ingilis dili)
2. Beynəlxalq münasibətlər
3. Filologiya
4. Psixologiya
5. Tərcümə (ingilis dili)
6. Dizayn (interyer; qrafik; modelyer)
7. Biznesin idarə edilməsi
8. Dövlət və bələdiyyə idarəetməsi
9. Dünya iqtisadiyyatı

10. Maliyyə
11. Marketinq
12. Menecment
13. Mühasibat uçotu və audit
14. Ekologiya mühəndisliyi
15. Biologiya
16. Kompüter mühəndisliyi
17. Turizm və otelçilik

2017-2018-ci tədris ili üçün universitetdə magistratura səviyyəsi üzrə tədrisi təklif olunan ixtisaslaşmaların sayı 14 olmuşdur. Sözügedən ixtisaslaşmalar aşağıdakılardır.

1. Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası
2. Xarici dilin tədrisi metodikası və metodologiyası (ingilis dili üzrə)
3. Azərbaycan ədəbiyyatı
4. Azərbaycan dili
5. Biologiya fənninin tədrisi metodikası və metodologiyası
6. Beynəlxalq münasibətlər və diplomatiya
7. Beynəlxalq iqtisadi münasibətlər
8. Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri
9. Bank işi
10. Maliyyə nəzarəti və audit
11. Biznesin təşkili və idarə edilməsi
12. Neft-qaz yataqlarının işlənməsi
13. Kompüter mühəndisliyi
14. İdarəetmədə informasiya sistemləri

**Strateji məqsəd 3. Universitetin monitorinq, təhlil, qiymətləndirmə sisteminin təkmilləşdirilməsi**

Sözügedən strateji məqsəd özündə 9 hədəfi ehtiva etməkdədir (Bax: OYU SİP 2017-2022). Hər bir hədəf üzrə fəaliyyətə qismən başlanılmışdır. Yalnız 9-

cu hədəf olan *"Tələbə məmunluğunu əldə etmək naminə "şikayət və təkliflər" qutusu üsulundan istifadə etmək"* hədəfinin reallaşdırılması üzrə qismən fəaliyyət müşahidə edilsə də prosesin intensivləşməsinə ehtiyac var.

**Strateji məqsəd 4. Universitetin elmi-tədqiqat işinin inkişaf etdirilməsi**

***Hədəf 1.*** *Bir tərəfdən kafedranın elmi istiqamətləri ilə digər tərəfdən universitetlər, məktəblər və biznes subyektləri arasında sabit əməkdaşlıq əlaqələrinin formalaşdırılması;*

Sözügedən əlaqələrin inkişaf etdirilməsi həm elmi-tədqiqat fəaliyyətinin həm də praktik biliklərin artırılması prosesinin dayanıqlı inkişafını səciyyələndirəcəkdir. 2017-2018-ci tədris ili ərzində aşağıdakı təşkilatlar ilə əməkdaşlıq əlaqələri qurulmuşdur:

- 5 dekabr 2017-ci il - Oksigen Klinik Xəstəxanası
- 31 yanvar 2018-ci il - Ibeh International Bildung und Entwicklungshilfe
- 18 aprel 2018-ci il - Beynəlxalq Miqrasiya Təşkilatı
- 21 may 2018-ci il - Sefco Consulting Group

Prosesin intensivləşməsinə ehtiyac vardır.

***Hədəf 2.*** *"Scopus" bazasında çapedilən məqalələrin illik sayının baza ilinə nisbətdə ən azı 2 dəfə artırılması;*

Scopus bazasında çap edilən məqalələrin illik sayının baza ilinə nisbətdə artırılması üçün 2017-ci il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin əməkdaşlarının məqalələrinin sayı 4 olaraq müəyyən edilmişdir.[1] Prosesin intensivləşməsinə ehtiyac vardır. Bu göstərici uzunmüddətli perspektivdə Odlar Yurdu Universitetinin reytinqinə təsir edə bilər. Scopus bazasında məqalələrin sayı tədris ili üzrə yox təqvim ili üzrə görsəndiyi üçün burada baza ili 2017-ci il olaraq müəyyən edilməlidir.

---

[1] Qeyd: Scopus bazasında məqalələrin sayı cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir.

***Hədəf* 3.** *“Scopus” bazasındakı istinad indeksinin baza ilinə nisbətdə ən azı 10 dəfə artırılması;*

2017-ci il üzrə Scopus bazasında Odlar Yurdu Universitetinin istinad indeksi 2 olaraq müəyyən edilmişdir.[2] Bu göstəricinin SİP-in icrasının sonunda minimum 10 dəfə artması hədəflənməkdədir.

***Hədəf* 4.** *“Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri” jurnalının elmi bazalara daxil edilməsini təşkil etmək;*

“Odlar Yurdu Universitetinin Elmi və Pedoqoji Xəbərləri” Jurnalı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyanın tövsiyyə etdiyi nəşrlər siyahısındadır. Strateji dövrdə jurnalın yeni elmi bazalara daxil edilməsi hədəflənməkdədir. 2017-2018-ci tədris ili üzrə sözügedən hədəf üzrə qismən fəaliyyət müşahidə edilsə də prosesin intensivləşməsinə ehtiyac var.

***Hədəf* 5.** *“Scopus” bazasına daxil olan beynəlxalq elmi konfranslarda OYU-nun adından məqalələrin mövcud olmasını təmin etmək;*

Odlar Yurdu Universitetinin əməkdaşlarının 2017-ci il üzrə Scopus bazasına daxil olan beynəlxalq elmi konfranslardakı məqalə sayı 4 olaraq müəyyən edilmişdir.[3] Sözügedən prosesin intensivləşməsinə ehtiyac vardır.

***Hədəf* 6.** *Universitetin elmi-tədqiqat strategiyasının formalaşdırılması;*

Odlar Yurdu Universitetində 2017-2022-ci illəri əhatə edən elmi-tədqiqat strategiyası formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu hədəf tam reallaşdırılmışdır.

---

[2] Qeyd: Scopus bazasında istinad indeksi cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir.

[3] Qeyd: Scopus bazasında məqalələrin sayı cari ilin sonu üçün müəyyən edilmişdir. Bu səbəbdən hesabatdakı məlumatların doğruluğunu təmin etmək məqsədilə təqvim ilinin sonunda hesabata müvafiq düzəlişlər edilmişdir.

***Hədəf 7.*** *Elmi-tədqiqat işlərinin nəticələrinin tədrisdə, magistr və doktorluq işlərində tətbiq edilməsi;*

Odlar Yurdu Universitetində elmi-tədqiqat işlərinin tədris, magistr və doktorluq işlərində tətbiq edilməsi ilə bağlı fəaliyyətə başlanılmış, magistr və doktorant tələbələrinin elmi əsərləri çap edilmiş və bu elmi əsərlərdən dissertasiyalarda istifadə edilmişdir.

***Hədəf 8.*** *Əqli mülkiyyətin qorunmasına yönəlmiş anti-plagiat sisteminin qurulması;*

Akademik etikanın əsasını təşkil edən istiqamətlərdən biri də əqli mülkiyyətin qorunmasıdır. Bu istiqamətdə məhşur proqramların alınmasına ehtiyac vardır. Sözügedən hədəf üzrə qismən fəaliyyət müşahidə edilsə də prosesin intensivləşməsinə ehtiyac var.

**Strateji məqsəd 5. Universitetin beynəlxalq əlaqələrini genişləndirmək**

***Hədəf 1.*** *Xaricdə fəaliyyət göstərən universitetlərlə yeni əlaqələrin qurulması;*

2017-2018-ci tədris ili üzrə aşağıdakı xarici universitetlər ilə əlaqələr qurulmuşdur:

- Universiti Malaysia Perlis – 23.11.2017
- Kocaeli University – 23.05.2018
- Dogush University – 16.05.2018

Prosesin intensivləşməsinə ehtiyac vardır.

***Hədəf 2.*** *Universitetin müəllim və tələbələrinin beynəlxalq mübadilə proqramlarına cəlb edilməsini genişləndirmək;*

Odlar Yurdu Universitetində müəllimlərin Mevlana beynəlxalq mübadilə proqramına cəlb edilməsi prosesi üzrə fəaliyyətə başlanılaraq 07.03.2018, 29.05.2018, 05.06.2018, 21.06.2018 və 28.06.2018-ci illərdə əməkdaşlıq protokolları imzalanmışdır.

***Hədəf 3.*** *Xarici təşkilatlarla əməkdaşlıq edərək, təhsil və elm sahəsindəki proqramlarda, layihələrdə, konfranslarda, vebinarlarda, debatlarda OYU-nun əməkdaşlarının iştirakını təşkil etmək;*

2017-2018-ci tədris ilində xarici təşkilatlar ilə əməkdaşlıq çərçivəsində aşağıdakı 2 konfrans keçirilmişdir ki, burada da universitetin əməkdaşları iştirak etmişdir:

- 15.02.2018 - Görkəmli Azərbaycan nasiri, böyük ədəbiyyatşünas alim və pedaqoq Mir Cəlal Paşayevin anadan olmasının 110 illiyi ilə əlaqədar olaraq Universitetdə elmi-praktik konfransın təşkili və keçirilməsi.
- 14.04.2018 - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi və Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 - ci ildonümünə həsr olunmuş "Müasir dövrdə Heydər Əliyevin dövlətçilik modeli: realıqlar ve faktlar" mövzusunda beynəlxalq elmi-praktiki konfransın təşkili və keçirilməsi.

Prosesin daha da genişspektr almasına ehtiyac var.

***Hədəf 4.*** *Əcnəbi tələbələrlə iş keyfiyyətinin daha da təkmilləşdirilməsi və qəbul sayının baza ilinə nisbətdə ən azı 50 faiz artırılması;*

Odlar Yurdu Universitetində 2017-2018-ci tədris ili üçün əcnəbi tələbələrin sayı 25 nəfər təşkil etmişdir. Müqayisəli təhlil aparılması üçün növbəti ilin göstəricisinin müəyyən edilməsi zəruridir. Bu hədəfin reallaşması üçün xarici dil biliyi yüksək olan müəllimlərə ehtiyac vardır.

***Hədəf 5.*** *Tərəfdaş olduğumuz beynəlxalq səviyyəli qrant layihələrinin sayının artırılması;*

Bu hədəfin reallaşması Odlar Yurdu Universitetində müxtəlif səpkili layihələrin maliyyə təminatı problemini aradan qaldıraraq, təcrübi biliklərin artırılmasına şərait yarada bilər. 2017-2018-ci tədris ilində bu hədəfin reallaşması üzrə fəaliyyətə başlanılmışdır.

***Hədəf 6.*** *Beynəlmiləlləşmə siyasətinin formalaşdırılması*

Sözügedən siyasətin formalaşdırılmış və 01.02.2018-ci ildə təsdiq edilmişdir. Bu siyasət özündə Ali Təhsil Müəssisəsinin beynəlxalq tanıtımının başlıca istiqamətlərini ehtiva etməkdədir. Hədəf tam icra olunmuşdur.

## 4. ƏSAS ÇƏTİNLİKLƏR VƏ MƏHDUDİYYƏTLƏR

2017-2018-ci tədris ili üzrə həyata keçirilən fəaliyyətlər zamanı aşağıdakı çətinliklər müşahidə edilmişdir:

- SİP-in ilk ili olduğu üçün müqayisəli məlumatların mövcud olmaması;
- Akademik və inzibati heyətin dəyişikliklərə adaptasiya prosesinin zamana ehtiyac duyması.

## 5. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

2017-2022-ci illəri əhatə edən SİP-in yerinə yetirilməsi aşağıdakı nəticələrin əldə edilməsinə imkan yaradacaq:

- Odlar Yurdu Universitetinin Azərbaycanın aparıcı universitetlərindən biri kimi mövqeyinin möhkəmlənməsinə;
- OYU-nun xarici elm və təhsil məkanına inteqrasiyasının sürətlənməsinə;
- Beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə müasir tələblər səviyyəsində pedaqoji kadr hazırlığının aparılmasına;
- OYU-nun maddi-texniki və tədris-metodiki təminatının müasirləşdirilməsinə;
- Əcnəbi tələbələrin sayının artmasına;
- Universitetdə kadr hazırlığının cəmiyyətin əmək bazarının tələbatlarına uyğunlaşdırılmasına;
- Beynəlxalq tələblərə cavab verəcək keyfiyyətin təminatı və idarəolunması sisteminin yaradılmasına;
- Müəllim və tələbə mübadiləsi sahəsində imkanların artırılmasına;

- Beynəlxalq səviyyədə fundamental və tətbiqi elmi-tədqiqatların aparılmasına.

## 6. NƏTİCƏ VƏ TƏKLİFLƏR

İlk monitorinq ili çərçivəsində əsas məqsəd Strateji İnkişaf Planının icrasına başlanılması olmuşdur. Bu baxımdan, aşağıdakı nəticələr əldə edilmişdir:

- Planın icrası üçün əsas struktur və proseslər müəyyən edilmişdir;
- Prioritet istiqamətlər üzrə ilkin fəaliyyətlər əsasən həyata keçirilmişdir;
- Baza göstəricilərinin müəyyən edilməsi üçün ilkin məlumatlar toplanmışdır.

Gələcək illərdə monitorinqin daha effektiv aparılması üçün aşağıdakı təkliflər irəli sürülür:

- İlkin baza göstəricilərinin tam formalaşdırılması və gələcək illərlə müqayisə aparmaq üçün davamlı monitorinq mexanizminin yaradılması;
- Fəaliyyətlərin effektivliyinin artırılması məqsədilə universitet əməkdaşları və tələbələrin proseslərə daha aktiv cəlb edilməsi.

Bu monitorinq hesabatı SİP-in ilk icra ili üzrə həyata keçirilmiş işlərin qiymətləndirilməsinə əsaslanır. Qarşıdakı illərdə əldə edilən baza göstəricilər əsasında daha detallı müqayisəli təhlillərin aparılması mümkün olacaqdır. Bu prosesin davamlı izlənilməsi və təkmilləşdirilməsi universitetin uzunmüddətli inkişaf strategiyasının uğurla həyata keçirilməsinə töhfə verəcəkdir.